# Vətən sevgisi uğrunda şəhidlik zirvəsinə ucalan igid - Sərxan Mustafayev

**Torpaqlarımızın işğaldan azad olması uğrunda canından keçən igidlərimizdən biri də Sərxan Mustafayevdir. O, 1994-cü ildə Qazax rayonunun Ermənistanla sərhəddə yerləşən Aslanbəyli kəndində doğulub. Elə düşmənlə qonşuluqda yaşayan Sərxan uşaqlıqdan güllə səsləri ilə böyüyüb. Vətən sevgisi onun üçün hər şeydən öndə gəlirdi.**

AZƏRTAC xəbər verir ki, 44 günlük Vətən müharibəsi şəhidi Sərxan Mustafayev uşaqlıqdan vətənpərvərliyi ilə seçilib. O, düşmən tapdağı altındakı torpaqlarımızın azad olunacağı günü gözləyirdi. Tale elə gətirdi ki, bu yolda haqq savaşına qatılmaq onun da qismətində oldu. Sərxan Füzuli, Cəbrayıl, Xocavənd istiqamətində döyüşlərdə fəal iştirak edib.

"Həmişə danışardı ki, böyüyəndə Birinci Qarabağ müharibəsinin şəhidləri olan əmisinin, dayısının, eyni zamanda digər şəhidlərimizin qisasını alacaq. O, əmisinin də, dayısının da qisasını aldı. Eləcə də bütün şəhidlərimizin qisasını aldı, Vətən uğrunda canını verdi. Torpaqlarımız işğaldan azad edildi. Şəhid anası kimi qürurluyam. Şəhidlərimizin qanı yerdə qalmadı", - deyə Sərxanın anası Fəridə Mustafayeva bildirir.



Bacısı Söylü Mustafayeva da qardaşı haqqında fəxrlə danışır. Deyir qardaşı ilə sirdaş, dost olublar: "Qardaşım qürurlu, qeyrətli gənc idi, çətinliklərdən qorxmurdu. Öndə getməyi sevərdi. Həmişə deyirdi ki, müharibədə öndə olacağam. Əsgər yoldaşları onun barəsində fəxrlə danışırlar. O, mənim bu həyatda ən çox darıxdığım insandır. Həmişə deyərdi ki, vətən uğrunda şəhid olacaq. O, ən yüksək zirvədir, vətən hər şeydən öndə dayanır. Elə vətən uğrunda da canından keçdi".

Sərxan 2020-ci il oktyabrın 31-də Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb. "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhidin nəşi Qazaxın Aslanbəyli kənd qəbiristanlığında torpağa tapşırılıb. Onun Vətənə əmanət qalan bir qız və bir oğul övladı dövlətin qayğısı ilə əhatə olunub.

Azərbaycan.- 2025.- 3 oktyabr (№212).- S.8.